# Gəncə terrorunda al-qana bulaşan azyaşlının təbəssümü

## Dağıntılar altından çıxarılan Ömər Nəsirovun şəkli uşaq qatillərinə nifrət, dünyaya sülh mesajıdır: “Bu, mənim yadımdan çıxmayacaq”



Müharibə! Terror! Qəddarlıq!

Bugünün uşaqlarının, hətta, ağlı hələ çox şeyləri kəsməyən balaların görəsən günahı nədir ki, faşist xislətli erməni daşnakların saxta torpaq iddiası altında soyqırımına məruz qalırlar?!

Bu suala cavab verməyi bacarmayanlara balaca Ömərin şəkli çox şeylər deyir. O, bununla vəzifəsi sülh missiyası olan beynəlxalq təşkilatlara, erməni vandalizmini dolayısı ilə dəstəkləyənlərə xalqımızın böyükdən-kiçiyə humanist olduğunu bir daha göstərdi!

Moskvada sülh danışıqlarının getdiyi bir vaxtda Azərbaycanın qədim şəhəri, Nizami yurdu, cəbhə xəttindən tamamilə uzaqda yerləşən, dəfələrlə daşnakların ağır artilleriya qurğularından atəşə məruz qalan Gəncəyə yenidən raket zərbəsi endirməsi, onun dinc sakinlərini terrora məruz qoyulması da tarixə qanla yazıldı. Yalnız ona görə yox ki, orada qətlə yetirilənlərin hamısı azyaşlılar, qadınlar, qocalardır.

Ermənistan silahlı qüvvələrinin gecə saatlarında Gəncənin mərkəzi hissəsində yerləşən çoxmənzilli yaşayış binalarını raket atəşinə tutması nəticəsində dördü qadın olmaqla, doqquz nəfər həlak oldu. Dağıntıların altından bir neçə yaralı uşaq da çıxarıldı. Onlardan biri də şəkli sosial mediada qandonduran dərəcədə hiddət doğuran azyaşlı Ömər Nəsirovdur. O, öz xilaskarlarına dili tutar-tutmaz deyib: “...Bu, mənim yadımdan çıxmayacaq...”

Maraqlıdır: balaca Ömərin yaddaşına yazılan və yadından çıxmayan nədir?! Onun simasındakı təbəssümlə düşmənə nifrəti bir-birinə qarışıb, üz-gözünə bulaşan qanlı göz yaşları kimi! Bu baxışların arxasında ilk növbədə öz xalqına məxsus - qürur, əyilməzlik, düşməndən qorxmamaq... kimi mübarizlik boylanır!

***Məhəmməd NƏRİMANOĞLU,***
***“Azərbaycan”***

Azərbaycan.- 2020.-13 oktyabr.- S.9.